# Silahlı Qüvvələrin yaranması günü böyük təntənə ilə qeyd edildi





Azərbaycan Texnologiya Universitetində 26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranması günü münasibətilə professor-müəllim, tələbə, ehtiyatda olan hərbçilər və " N" saylı hərbi hissənin hərbçilərinin iştirakı ilə təntənəli bayram tədbiri keçirildi. İlk öncə "N" saylı hərbi hissənin orkestrinin ifası ilə Azərbaycan Respublikasının dövlət himni səsləndi. Sonra universitetin rektor əvəzi Rövşən Əliyev tədbir iştirakçılarını salamlayaraq bu bayram münasibətilə təbrik etdi. Natiq 26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şanlı tarixindən, tarixi əhəmiyyətli bir gün olmasından danışdı. Bəli, bu günün bayram kimi tarixləşməsinin müəllifi müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ölkəmizdə peşəkar ordu quruculuğunun əsası isə 1993-cü ilin sonlarında qoyuldu. Həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, ordudakı siyasiləşməyə son qoyuldu. Heydər Əliyev hakimiyyəti dövründə həm prezident, həm də Ali Baş Komandan olaraq ordunun qüdrətli olmasına diqqəti yönəltdi. Ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Tədbirə dəvət olunmuş "N" saylı hərbi hissənin leytenantı Pərvanə Həsənova çıxışında Azərbaycanın hərbi salnaməsinə nəzər salaraq Böyük Vətən Müharibəsi illərində olduğu kimi, Qarabağ müharibəsi zamanı da Azərbaycanın Mübariz İbrahimov kimi mərd, şücaətli, igid hərbçilərinin düşmənlə mübarizədə amansızcasına döyüşə atılıb, Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalmasını qeyd etdi. Keçmiş hərbçi Faiq Məmmədov çıxışında qeyd etdi ki, Ali Baş Komandanın ətrafında sıx birləşmişlər, lazım olsa, Qarabağın azad edilməsi üçün hətta veteranlar belə müsəlləh əsgər kimi döyüşə hazırdırlar. Tədbirin rəsmi hissəsindən sonra, "N" saylı hərbi hissəsinin çevik alayının nümunəvi çıxışları tədbir iştirakçılarına təqdim edildi. İştirakçıların alqış sədası altında Azərbaycan əsgərləri öz şücaətlərini nümayiş etdirdilər.

Universitetin müxtəlif idman növləri ilə məşğul olan idmançıları da öz məharətlərini təqdim etdilər.

Universitet tələbələrinin, "Söhrab" ritm qrupunun və incəsənət xadimlərinin çıxışlarından ibarət bayram konserti müəllim, tələbələrin və hərbçilərin könlünü oxşadı. Tədbirin sonunda Azərbaycan Texnologiya Universitetinin rektor əvəzi Rövşən Əliyev peşə bayramı münasibəti ilə bir qrup hərbçilərə hədiyyələr, Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşan universitet əməkdaşlarına isə pul mükafatları təqdim etdi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**